

Tərtər

# "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün"

**Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin Mərkəzi Meydanda ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra tədbir YAP rayon təşkilatının inzibati binasında davam etdirilib.**

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirib ki, 2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il müstəqil Azərbaycan Konstitusiyasının qəbul edilməsindən 30, Vətən müharibəsində qazanılan zəfərdən 5 il keçir. Artıq doğma Vətənimiz azad və suverendir. Müstəqil Azərbaycanın tərəqqisi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu mənada, Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın taleyində misilsiz rol oynayır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir.

Ulu Öndərimizin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, inkişafı ilə bütün dünyada tanınan diyara çevrilib. Rayon rəhbəri Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn zaman ölkədəki ictimai-siyasi vəziyyətdən, xaos və qarşıdurmadan, ölkəmizin parçalanmaq təhlükəsindən, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsindən, 20 Yanvar faciəsi, Xocalı soyqırımından da danışıb, Ulu Öndərin xalqının səsini bütün dünyaya çatdırdığını qeyd edib, görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, "Əsrin müqaviləsi"nin imzalanmasını yada salıb. Qeyd olunub ki, dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi, milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevirməsi olduğunu vurğulayıb.

Ölkəmiz Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni nailiyyətlər qazanır. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad edilib.

Sonra YAP rayon təşkilatının sədri Eldar Əsədov, "Yeni Tərtər" qəzetinin redaktoru Svetlana Bağırova, Hüsənli kənd İƏD üzrə nümayəndə Gülüstan Əhmədova və Şıxarx 1 saylı tam orta məktəbin direktoru Vəfa Quliyeva, Tərtər Mərkəzi Xəstəxanası Publik Hüquqi şəxsinin direktor müavini, baş həkim Bəkir Nağıyev çıxış ediblər. Çıxışlarda bugünkü azad və suveren Azərbaycanın təməlinin məhz Ulu Öndər tərəfindən qoyulduğu qeyd olunub. Sonda ulu öndərin həyat və fəaliyyətini əks etdirən filim nümayiş etdirilib.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika.- 2025.- 15 iyul (№ 143).- S.10.